**“Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanılması və ətrafının abadlaşdırılmasına dair Tədbirlər planı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 2 aprel tarixli 2079 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanılması və ətrafının abadlaşdırılmasına dair Tədbirlər planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 avqust 2009-cu il.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 19 avqust tarixli Sərəncamı ilə TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanılması və ətrafının abadlaşdırılmasına dair**

**TƏDBİRLƏR PLANI**

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul qurumlar |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının ərazisində bədii əhəmiyyət kəsb edən monumental heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin Dövlət reyestrinin tərtibi | 2009-cu il | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və digər müvafiq yerli icra hakimiyyəti orqanları |
| 2. | Heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin ucaldılması və demontajı üzrə ekspert komissiyasının yaradılması və fəaliyyətinin təşkili | 2009-cu il | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası (Azərbaycan Rəssamlar İttifaqı və Memarlar İttifaqının təklifləri nəzərə alınmaqla) |
| 3. | Təmir-bərpa işləri tələb olunan heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin müəyyən edilməsi və müvafiq təkliflərin hazırlanması | 2009-cu il | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti və digər müvafiq yerli icra hakimiyyəti orqanları |

| | | | |
|---|---|---|---|
| 4. | Heykəltəraşlıq abidələrində, xatirə-memorial və memarlıq komplekslərində təmir-bərpa və abadlıq işlərinin aparılması | 2009-2010-cu illər | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti və digər müvafiq yerli icra hakimiyyəti orqanları |
| 5. | Azərbaycançılıq məfkurəsinin tələblərinə uyğun ucaldılması nəzərdə tutulan heykəltəraşlıq abidələrinin, xatirə-memorial komplekslərinin eskizlərinin və layihə-smeta sənədlərinin hazırlanması | 2010-cu ilin birinci rübü | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti və digər yerli icra hakimiyyəti orqanları |
| 6. | Bədii əhəmiyyət daşıyan, demontaj edilməli heykəltəraşlıq abidələrinin saxlanılması üçün Bakı şəhəri ətrafında ləğv edilmiş və rekultivasiya olunacaq sənaye zonaları sahələrində regional heykəllər xiyabanının yaradılacağı müvafiq ərazilərin müəyyənləşdirilməsi və ilkin təkliflərin hazırlanması | 2010-cu ilin birinci rübü | Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, digər müvafiq yerli icra hakimiyyəti orqanları (Azərbaycan Rəssamlar İttifaqı və Memarlar İttifaqının təklifləri nəzərə alınmaqla) |